# *Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasını uğurla başa çatdırdı*

## Yeni Azərbaycan Partiyası imzatoplama kampaniyasını uğurla yekunlaşdırdı

Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün partiyanın yerli strukturları tərəfindən mütəşəkkil surətdə həyata keçirilmiş imzatoplama kampaniyası uğurla başa çatıb.

Seçki Məcəlləsinin tələbinə müvafiq olaraq, prezidentliyə namizədin müdafiəsi üçün tələb olunan 40 mindən az olmayan sayda seçici imzası 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza olmaq şərtilə toplanmalıdır. Yeni Azərbaycan Partiyası İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün mövcud 125 dairənin hər birinin ərazisində imzatoplama aksiyası keçirib və kampaniyanı uğurla başa çatdırıb. İcra Katibliyində toplanmış imzalarla bağlı bir daha dəqiqləşdirmələr aparıldıqdan sonra sənədlər toplusu Mərkəzi Seçki Komissiyasına təqdim ediləcəkdir.

Xatırladaq ki, Yeni Azərbaycan Partiyasının 2018-ci il fevral ayının 8-də VI Qurultayı keçirilib. Qurultayda 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyinin irəli sürülməsi barədə yekdilliklə qərar qəbul edilib. Fevralın 14-də Mərkəzi Seçki Komissiyasının iclasında 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi təsdiq edilib.

## Səbail rayonunda imzatoplama kampaniyası böyük ruh yüksəkliyi ilə həyata keçirilib









Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi məqsədilə seçici imzalarının toplanılması kampaniyasını uğurla başa çatdırıb.



Bu barədə verilən məlumatda deyilir ki, ilk öncə, YAP Səbail rayon təşkilatının seçki qərargahında imza toplayacaq fəallarla görüş keçirilib. Görüşdə imza toplayacaq şəxslərə qanunvericiliyə uyğun olaraq imzatoplamanın bütün prosedur qaydaları ətraflı izah edilib, imzaların düzgün, kənar müdaxilə olmadan, tam şəffaf toplanması üçün müvafiq təlimat və tapşırıqlar verilib.

Fevralın 16-dan etibarən YAP Səbail rayon təşkilatının seçki qərargahının imzatoplayan fəalları rayonun 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri üzrə yaşayan sakinlərinin imzalarını toplamaq üçün işə başlayıblar və Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq hər bir sakinlə fərdi qaydada görüşərək, imzatoplama prosesini qısa müddət ərzində tam şəffaf və demokratik şəraitdə başa çatdırıblar.

Yoxlanılmış və təsdiq olunmuş imza vərəqələri 19 fevral tarixində YAP-ın Mərkəzi Seçki Qərargahına təqdim olunub.

Onu da əlavə edək ki, 45 min seçicinin qeydiyyatda olduğu Səbail rayonu üzrə 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri, ümumilikdə 40 seçki məntəqəsi fəaliyyət göstərir.







## Gəncədə YAP-ın imzatoplama kampaniyası uğurla başa çatıb



Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülmüş cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasını uğurla başa vurub.



Qeyd edək ki, respublikamızın hər yerində olduğu kimi, Gəncə şəhərində də 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinə hazırlıq işləri yüksək səviyyədə aparılıb. YAP Gəncə şəhər təşkilatında 25 nəfər partiya fəalından ibarət qərargah üzvləri seçilib. İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün imzatoplama kampaniyasına başlanılıb.

19 fevral tarixindən etibarən YAP Gəncə şəhər təşkilatının seçki qərargahının imzatoplayan fəalları qısa müddət ərzində 4 seçki dairəsinin 107 məntəqəsi üzrə nəzərdə tutulan imzaları toplayaraq, maksimum imza toplamaq öhdəliyini uğurla yerinə yetiriblər.



YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev bildirib ki, bütün seçkilərdə mütəşəkkillik, qətiyyət nümayiş etdirən gəncəlilər imzatoplama kampaniyasında böyük coşqu ilə iştirak ediblər.

Naqif Həmzəyev vurğulayıb ki, Gəncə şəhərində yüksək mütəşəkkillik şəraitində keçən imzatoplama kampaniyası uğurla başa çatdırılıb.

## YAP Laçın rayon təşkilatı seçici imzalarının toplanması prosesini başa çatdırıb

Yeni Azərbaycan Partiyası (YAP) Laçın rayon təşkilatı 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində partiyamızın Azərbaycan Respublikası Prezidentliyinə namizədi cənab İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi məqsədilə seçici imzalarının toplanması prosesini başa çatdırıb.



YAP Laçın rayon təşkilatının seçki qərargahının 7 nəfər imzatoplayan fəalı 121 saylı Laçın Seçki Dairəsi üzrə yaşayan sakinlərdən 350 imza toplayıb. Seçki Məcəlləsinin və qanunvericiliyin tələblərinə uyğun olaraq, hər bir sakinlə fərdi qaydada görüşüb, şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd əsasında məlumatları qeyd ediblər.

